# "Azərbaycan diplomatiyası regional və Avrasiya səviyyəsində etibarlı aktor olduğunu təsdiqləyir"

**"Azərbaycanın son dövrlərdə həyata keçirdiyi diplomatiya yalnız müvəqqəti və ya dövri əlaqələr kimi qiymətləndirilməməlidir".**

Bu barədə AZƏRTAC-a açıqlamasında türkiyəli ekspert, Beynəlxalq Münasibətlər üzrə mütəxəssis Mehmet Emir Aksoy bildirib.

O qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan intensiv danışıqlar Bakının Qafqaz mərkəzli geosiyasi mövqeyini Asiya-Avropa xəttində davamlı və çoxşaxəli diplomatik körpüyə çevirmə strategiyasının təbii nəticəsidir: "Azərbaycan rəhbərliyi klassik diplomatik reflekslərin sərhədlərini aşaraq "eyni zamanda əlaqə - eyni zamanda tarazlıq" prinsipinə əsaslanır. Moskva, Ankara, Tehran, Brüssel və Mərkəzi Asiya paytaxtları ilə aparılan diplomatiya Azərbaycanın yalnız regional aktor olmadığını, müxtəlif güc mərkəzləri arasında tarazlıq qura bilən rasional dövlət düşüncəsinə malik olduğunu göstərir".

Mehmet Emir Aksoy bu diplomatik fəaliyyətin passiv vasitəçilik deyil, aktiv və yönverici diplomatik mexanizm kimi xarakterizə olunduğunu bildirib. Eyni zamanda Azərbaycanın diplomatiyası və hərbi potensialı arasında sistemli sinxronizasiyanın vacibliyini vurğulayan ekspert qeyd edib ki, 2020-ci il II Qarabağ müharibəsi sonrası ortaya çıxan vəziyyət göstərdi ki, Azərbaycan yalnız döyüş meydanında qalib gəlməklə kifayətlənmir, eyni zamanda əldə etdiyi nəticələri masada qorumağı bacarır.

Türkiyəli ekspertin sözlərinə görə, Azərbaycan ordusunun modernləşdirilməsi, texnoloji qabiliyyəti və nizam-intizamlı strukturu diplomatik görüşlərin arxa planında səssiz, lakin effektiv tarazlıq elementi rolunu oynayır. Bu, Azərbaycanı yalnız Qafqazda deyil, Xəzər hövzəsi, Orta Asiya və Cənubi Qafqaz bölgələrində də etibarlı və sabitlik gətirən aktora çevirir.

"Asiyadan Avropaya uzanan enerji, logistika və nəqliyyat xətlərinin mərkəzində yerləşən Azərbaycan bu strateji mövqeyini artıq yalnız coğrafi mövqeyi ilə deyil, ağıllı diplomatiya və güclü ordu potensialı ilə möhkəmləndirir. Prezident İlham Əliyevin son dövrdəki diplomatiyası bu bütüncül dövlət anlayışının real sahəyə tətbiqi kimi qiymətləndirilməlidir", - deyə Mehmet Emir Aksoy bildirib.

Ekspert əlavə edib ki, bu gün Bakı, böhranların ardınca sürüklənən deyil, balansları düzgün qiymətləndirən, zamanlamanı dəqiq seçən və gücü ilə diplomatiyanı səmərəli şəkildə sintez edən mərkəz kimi formalaşıb. Bu vəziyyət isə Azərbaycanı gələcəkdə yalnız regional deyil, Avrasiya miqyasında da önəmli aktor kimi təsdiqləyir.

Azərbaycan. - 2025.- 27 dekabr (№273).- S.5.